*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * **İCTİMAİ-SİYASİ QƏZET** * №004 (187) may 2019-cu il

# "9 may - Faşizim üzərində qələbə günü"









***Tədbir "9 may - Faşizim üzərində qələbə günü" ilə əlaqədar II dünya müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə gül qoylumasi ilə başlandı sonra Qobustan rayon İcra Hakimiyyəti başçısı cənab Adil Məmmədov çıxış edərək Qələbə günü münasibəti ilə tədbir iştirakçılarını təbrik etdi.***

Böyük Vətən müharibəsi illərindən danışaraq qeyd etdi ki, Azərbaycan İkinci Dünya Müharibəsində qələbənin qazanılmasına böyük töhfə verıb. Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib. Azərbaycanın 700 mindən çox igid oğlu və qızı cəbhəyə yollanmışdı. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Həmvətənlərimizin təqribən 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir. Azərbaycandan olan 170 min əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunmuşdur. Arxa cəbhədə də böyük şücaət göstərən Azərbaycan xalqı həm neft, həm də digər təsərrüfat məhsulları ilə cəbhəni təchiz edirdi. Qobustan rayonundan da müharibədə yüzlərlə adam iştirak etmiş.

Sonra natiq Dağlıq Qarabağ münaqişəsindən danışaraq qeyd etdi ki, Azərbaycan xalqı öz ərazi bütövlüyünün qorunmasında böyük qəhrəmanlıqlar göstərmişdir.Yüzlərlə Azərbaycan oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Çıxışının sonunda A.Məmmədov Möhtərəm Prezident cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın işğal olunmuş torpaqlarının azad ediləcəyini və bu bayramların Qarabağ torpağında keçiriləcəyini qeyd etdi.

# Qobustan rayonunda Ümummili lider Heydər Əliyevin anadan olmasının 96-ci ildönümünə həsr edilmiş tədbir keçirildi







***Qobustan rayonunda Ümummili lider Heydər Əliyevin anadan olmasının 96-ci ildönümünə həsr edilmiş tədbir keçirildi. Tədbir Qobustan rayon Heydər Əliyev parkında Ulu Öndərin abidəsinin önünə gül qoyma mərasimi ilə başladı.***

Sonra Qobustan şəhərində 2 saylı Uşaq Bağçasına baxış keçirildi. Tədbirdə Yeni Azərbaycan Partiyasının Qobustan rayon təşkilatı üzrə sədri Füzuli Gülaliyev, Qobustan rayon prokroru kiçik ədliyyə müşaviri cənab Ramin Hüseynov çıxış etdilər. Sonra Qobustan rayon İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədov çıxış edərək bildirdi ki, bu gün bütün Azərbaycan xalqı öz xilaskarı, Ümummilli Lideri Heydər Əliyevin doğum gününü qeyd edir, Ulu öndərin əziz xatirəsini dərin minnətdarlıq hissi ilə anır. Bu gün müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın əvəzsiz lideri, ölkəmizin aydın sabahı naminə həyatını belə əsirgəməyən Heydər Əliyevin əbədiyyətə qovuşmasından 16 il keçir: Lakin xalqımız bu dahinin nurlu xatirəsini bir an belə unutmur, onun ideallarına böyük sədaqət nümayiş etdirir.

Anadan olmasının 96-ci ildönümünü böyük təntənə ilə qeyd etdiyimiz ulu öndər Heydər Əliyev dərin zəkası, lider xarizması, milli ideallara, adət-ənənələrə sıx bağlılığı, zəngin idarəçilik keyfiyyətləri ilə hələ imperiyanın ideoloji repressiya maşınının sərtliklə işə düşdüyü bir dövrdə-70-80-cı illərində "Qoy ədalət zəfər çalsın"şüarını dövrünün ictimai çağırışına çevirməyi bacarmışdır. Böyük strateq qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi istiqamətində prinsipial addımlar atmış, xalqın bəşəri hüquqlarının əzmkar və cəfakeş müdafiəsinə çevirməklə, milli ruh, iradə və özünüdərk meyillərinin ictimai şüurda möhkəmlənməsinə nail olmuşdur. Bu günün zirvəsindən baxdıqda sovet rejiminin ideoloji qəliblərinin hökm sürdüyü həmin illərdə ulu öndər Heydər Əliyevin xalqının hüquqlarını qoruyan, haqqı-nahaqqa verməyən, milliləşdirmə siyasəti aparmaqla ziyalı elitasını sərt təqiblərdən qoruyan fenomenal lider keyfiyyətləri qabarıq sezilir.

Böyük şəxsiyyət bütün maneələri adlayaraq Azərbaycanın milli konsepsiyasını irəli sürmüş, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır. Böyük öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab etmiş, bunun üçün ilk növbədə məhkəmə-hüquq sistemində dövrün tələbinə cavab verən mütərəqqi islahatların aparılmasına nail olmuşdur.

Sonda tədbir konsert proqramı ilə davam etdi.











# Qobustan rayonunda 2019-ci ilin 1-ci rübündə sosial-iqtisadi inkişafının yekunları və cari ildə qarşıda duran vəzifələrlərə dair hesabat yığıncağı keçirildi


















**14 may 2019-ci il tarixdə keçirilən hesabat yığıncağında prezdent cənab İlham Əliyevin rayonumuza səfəri haqqında video çarx təqdim olundu Sonra rayon icra hakimiyyətinin başçısı Adil Məmmədovun məruzəsi dinlənilib, çıxışlar olub.**

Vurğulanıb ki, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi, rayonda kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı, sosial layihələrin icrası istiqamətində ciddi tədbirlər görülüb və uğurlu nəticələr qazanılması üçün bütün tədbirlər görülür.Cənab Prezidentimizin göstərdiyi diqqət və qayğıya uyğun olaraq biz də Qobustan rayonunun timsalında doğma Azərbaycanımızın inkişafına öz töhfəmizi verməliyik. 2019-cu ilin birinci rübü Respublikamızda olduğu kimi Qobustan rayonunda da çox yüksək göstəricilərlə başa çatdırılmışdır.

Rüb ərzində rayonda 37 milyon 352 min 200 manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bunun 30,2 faizi istehsal sahələrinin payına düşür. Ümumi məhsul buraxılışının həcmində sənaye məhsulları və göstərilmiş xidmətlər 1,3 faiz, kənd təsərrüfatı 30,0 faiz, tikinti sektoru 6,9 faiz, nəqliyyat sektoru 1,3 faiz, poçt və rabitə xidmətləri 0,2 faiz, ticarət 60,3 faiz təşkil etmişdir. Ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışının həcmi 4,8 faiz artmışdır.

Bu artım kənd təsərrüfatında 0,4, tikinti sektorunda 53,5, nəqliyyat sektorunda 3,9, informasiya və rabitə sektorunda 8,0 və ticarət sektorunda 3,5 faiz təşkil etmişdir.

2019-cu ilin birinci rübündə Qobustan rayonunun yerli gəlirlər üzrə büdcə proqnozu 123,6 faiz icra edilmişdir. Hüquqi şəxslərin əmlak vergisi 3,3 dəfə, hüquqi şəxslərin torpaq vergisi 53 faiz, Əlavə Dəyər Vergisi 9,3 faiz, dövlət rüsumu 23,4 faiz, sair daxilolmalar 2,2 dəfə artıqlaması ilə yerinə yetirilmişdir. Bununla yanaşı hüquqi şəxslərin mənfəət vergisi 90 faiz, sadələşdirilmiş vergi 73,5 faiz, torpaq icarə haqqı isə cəmi 18,1 faiz icra edilmişdir. Aidiyyəti şəxslər növbəti aylarda sadalanan tədiyyə növləri üzrə də planın 100 faiz icrasına nail olmaq üçün zəruri tədbirlər həyata keçirməlidirlər.

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramda Qobustan rayonu üzrə 16 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlərdən artıq 7-nin icrasına başlanılmışdır. Çalışmalıyıq ki, Proqramda bizim üzərimizə düşən bütün vəzifələr vaxtında öz həllini tapsın. Yığıncaqda əhalinin elektrik enerjisi, təbii qazla normal təminatı sahəsində görülən işlər, habelə həllini gözləyən məsələlərlə bağlı ətraflı müzakirələr aparılıb.

Hesabat yığıncağında Prezident Administrasiyasının məsul işçisi Qalib Əsgərov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasından, qazanılan böyük uğurlardan, habelə qarşıda duran konkret vəzifələrdən danışıb

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Nabur kənd sakinləri ilə səyyar görüş keçirdi









**Kənd əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov kənd sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 14 may 2019-ci il tarixdə Nabur kəndində səyyar görüş-qəbul keçirmişdir. Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin işçisi Qalib Əsgərov da iştirak etmişdir.**

Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Vidadi Museyibov gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezdenti cənab İlham Əliyevə kənd sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır. Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.

İcra hakimiyyətinin başçısı daha sonra kəndin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, Vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. Görüş zamanı vətəndaşlar kəndə gələn 4 km-lik yolun asfaltlanması, müasir məktəb binasının tikilməsi, kənd daxili elektrik dirəklərinin təmir olunması və yeni tibb məntəqəsi tikilməsi ilə bağlı müraciət etmişlər. RİH başçısı qaldırılan məsələlənin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

# 28 may Respublika günüdür








***Tədbir Qobustan rayon Gənclər Mərkəzində keçirildi. Tədbirdə Qobustan RİH -nin başçısının müavinləri və rayon ictimayyəti iştirak etdilər. Sonra tədbir konsert proqramı ilə davam etdi.***

Qobustan rayon İcra hakimiyyətinin başçısının müavini Məharət Əkbərov çıxış edərək bildirdi ki, XİX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdir. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad demokratik dövlət sistemi yaratmağa hazır idilər.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən istiqlal bəyannaməsi qəbul edildi. Məhz dünyanın məlumunuz olduğu yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi. ölkənin sərhədləri müəyyənləşdirildi, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli təlcbələrə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi. Xalq Cümhuriyyətinin siyasi və mədəni varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir. Müsəlman aləmində ilk demokratik respublikanın yaradılması çox mühüm bir tarixi hadisə idi. Bundan sonra digər müsəlman ölkələrində respublika quruluşu yaradılsa da, ilk təcrübə məhz Azərbaycan xalqının istedadı, zəhməti, uzaqgörənliyi hesabına mümkün olmuşdur. Çox təəssüflər olsun ki, Azərbaycan cəmi iki il müstəqil ölkə kimi yaşaya bilmişdir. Buna baxmayaraq bu illər ərzində böyük işlər görülmüşdür. O illərdə demokratik təsisatlar qurulmuş, ordu quruculuğu sahəsində böyük işlər görülmüş, qadınlara səsvermə hüququ verilmiş, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə keçirilmiş rəsmi qəbuldakı çıxışında qeyd etdiyi kimi "Əgər 1920-ci ildə müstəqillik əlimizdən alınmasaydı, bu gün Azərbaycan dünyada ən zəngin ölkələrdən biri olacaqdı.

Əfsuslar olsun ki, 1920-ci ildə respublika süqut etdi, Azərbaycanın uğurlu inkişafına son qoyuldu.

Bu yerdə Ulu öndərimiz Heydər Əliyevin söylədiyi müdrik bir kəlam yada düşür. "Müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir".

Bu gün möhtərəm Prezidentimiz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz xoşbəxt günlərini yaşayan xalqımızın mətin, cəsarətli, yenilməz, işğal altında olan torpaqlarımızı hər an azad etməyə, Ali Baş Komandanın əmrini şərəflə yerinə yetirməyə hazır olan ordusu vardır.

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Qobustan şəhər sakinləri ilə səyyar görüş keçirdi

**Qobustan şəhər əhalisi əsasən heyvandarlıq, arıçılıq və əkinçiliklə məşğuldur. Qobustan rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov şəhər sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 24 may 2019-ci il tarixdə Qobustan şəhər 1 saylı tam orta məktəbdə səyyar görüş-qəbul keçirmişdir.**











Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Məlikağa Əhədov gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezdenti cənab İlham Əliyevə şəhər sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə sakinlərə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır. Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.

İcra hakimiyyətinin başçısı daha sonra şəhərin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. Görüş zamanı vətəndaşlar şəhərdə yeni Tarix-Diyarşünaslıq Mərkəzinin tikilməsi və bədii ədəbiyyat kitablarının satışı üçün obyekt açılması ilə bağlı müraciət etmişlər. RİH başçısı qaldırılan məsələlənin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Yekəxana kənd sakinləri ilə səyyar görüş keçirdi

***Qobustan rayon Yekəxana kənd İƏD nümayəndəliyində Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov Yekəxana kənd sakinləri ilə səyyar görüş keçirdi.***





Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavini, aparatın şöbə müdirləri iştirak edirdi. Sakinlər çıxış edərək rayonumuzda gedən abadlıq və quruculuq işlərinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər və onları narahat edən bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş etdilər. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov sakinlər tərəfindən qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurum rəhbərlərinə konkret tapşırıqlar verdi.

# Əməkdar Mədəniyyət İşçisi

***Bu gün Azərbaycan aşıq sənətinin inkşafında xususi xidmətləri olmuş Aşıq Abbas Musaxanoğlu Cənab Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar Mədəniyyət İşçisi" adına layiq görülüb. Təbrik edirik!***



Qobustan rayon aşıq mühitinin tanınmış nümayəndələrindən biri də Aşıq Abbas Musaxanoğludur. Sənət şəcərəsinə görə Şirvanın ustad sənətkarlarının nəslinə mənsub olan Aşıq Abbasın sənət yolu müasir Şirvan aşıqlığının ən mükəmməl sənət ənənələrini davam etdirməsilə diqqəti çəkir. Aşıq Abbas Musaxanoğlu müasir Şirvan aşıqlarına xas olan saz, söz və ifaçılıq ənənələrini öz yaradıcılığında davam etdirib və bu möhtəşəm irsi daha da zənginləşdirib. Onun yaradıcılığında diqqəti çəkən məqamlardan biri budur ki, şeirdə, poeziyada ifadə olunan Şirvanın təbii gözəlliyi, insan mənəviyyatının gözəlliyi və bunları ən nikbin və kamil bir şəkildə tərənnüm edən sənət gözəlliyi harmoniya yaradır. Şirvana məxsus olan yüksək mədəni-mənəvi dəyərlər, əxlaq və davranış, mərifət və sənət, təbiət gözəlliklərindən insanı daxili dünyasının təqdimində optimal istifadə olunması aşığın yaradıcılığını səciyyələndirən əsas göstəricilərindən sayılır. Aşığın yaradıcılığında bir tərəfdən mənsub olduğu sənət şəcərəsindən gələn ənənələr davam etdirilir, başqa tərəfdən isə fərdi yaradıcılıq hesabına bu ənənə daha da zənginləşdirilir.

# Minnətdarlıq

Bizim Qobustan rayonu Göydərə kəndinə suyun çəkilməsi sizin təşkilatı fəaliyyətinin məntiqi nəticəsidir. Bu günlərdə cənab prezidentin sərəncamı ilə doğulduğum doğma kəndimə  asfalt yolun çəkilməsi məni çox sevindirir. Rayonda gedən inkişaf göz qabağındadır. Necə deyərlər, görünən dağa bələdçi lazım deyil. Birmənalı şəkildə Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədovun fəaliyyətinin yüksək qiymətləndirirəm.

Çox hörmətli Adil müəllim! Vaxtı ilə Göydərə kəndinə suyun çəkilməsi üçün sizə müraciət edən Göydərə kəndindən olan rəhmətlik Qürbət kişinin oğluyam. Atam rəhmətlik həmişə deyərdi ki, xalqına bu qədər yaxın hələ belə İcra Başçısı görməmişəm. Atam asfalt yolun çəkilişini görsəydi, yəqin ki ürəyi dağa dönərdi. Qoy onun ruhu şad olsun . Tanrı sizin kimi insanları qorusun, bu xalqa sizin kimi təmənnasız xidmət edən oğullar lazımdır. Rayona göstrdiyiniz bu diqqət - bu qayğı böyük hörmətə və ehtirama layiqdir!



***Böyük hörmət hissi ilə,***
***AMEA-nın professoru***
***İlqar Qürbət oğlu Məmmədov***

# CAHANA SIĞMAYAN NƏSİMİ-650











***Qobustan şəhər 3 saylı məktəbdə Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz sənətkarı İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubleyinə həsr edilmiş " Cahana sığmayan Nəsimi-650"adlı ədəbi- bədii gecə keçirildi.***

Möhtərəm prezidentimiz cənab İlham Əliyev 15 noyabr 2018-ci il tarixdə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

2019-cu ilin Nəsimi ili elan edilməsi də dövlət başçısinin söz sənətkarlarına verdiyi yüksək qiymətin nəticəsidir.

Bu bir həqiqətdir ki, Nəsiminin Azərbaycan mühitində yenidən tanıdılmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Belə ki, Heydər Əliyevin ciddi səyləri nəticəsində Nəsiminin 1973-cü ildə 600 illik yubileyi son dərəcə möhtəşəm bir şəkildə keçirilmişdir.Ulu öndər o günləri yada salarkən deyirdi:

" Nəsiminin 600 illik yubleyini keçirdiyimiz zaman bu günyada nə qədər əks-səda doğurdu, Azərbaycanı nə qədər tanıtdıq.

... 600 il sonra biz Nəsiminin Hələb şəhərindəki məzarını tapdıq. İndi onun məzarı oraya gedənlər üçün bir ziyarətgahdır. Məhz Azərbaycan xalqına məxsus olan nadir bir şəxsiyyəti dünya ictimaiyyətinə , elminə,mədəniyyətinə tanıtmaq, şübhəsiz, ki xalqımızın hörmətini qaldırmaq deməkdir."

Həmin illərdə Nəsiminin Azərbaycan xalqına yenidən və bütöv qayıdışı istiqamətində böyük işlər görüldü. Nəsimi haqqında çox gözəl bir film yaradı.Heydər Əliyev siyasi məktəbinin davamçısı möhtərəm prezidentimiz İlham Əliyev yenidən Nəsimi ilə bağlı sərəncamlar imzaladı. . Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün yerlərdə müxtəlif tədbirlər keçirilir. Öz ənənələri ilə seçilən Qobustan şəhər 3 saylə məktəbin hazırladığı tədbir isə özünəməxsusluğu ilə seçilir.

Tədbirdə Qobustan İcra hakimiyyətinin nümayəndələri Afdandil Şikarov,Səfər İbrahimov, Qobustan Rayon Təhsil Şöbəsinin müdiri Füzuli Gülalıyev, Təhsil Şöbəsi Həmkarlar İttifaqının sədri Ənvər Qayıbov, Şamaxı rayonu Sabir qəsəbə tam orta məktəbinin müəllimlərindən ibarət nümayəndə heyəti, Qobustan rayonunun ümumtəhsil məktəblərinin bir neçəsinin direktorları və müəllimləri, Azərbaycan Pespublikasının Əməkdar müəllimi Musa Eyyubov və başqaları qonaq qismində iştirak edirdilər. Tədbiri məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Sədaqət Məhərrəmova hazırlamışdır.

Məktəbin direktoru Əlibəy Abduləzizov qonaqları salamlayıb tədbir haqqına qısa məlumat verdikdən sonra ədəbi-bədii gecə Nəsimi obrazını canlandıran Xb sinif şagirdi Allahyar Şükürovun səhnəyə daxil olub Fikrət Əmirovun "Nəsimi haqqında dastan" musiqisinin sədaları ilə Nəsiminin məhşur misralarını söyləməklə başladı. Şagirdlərin bir- birindən maraqlı çıxışları hər kəsi heyran edirdi. Tədbirin aparıcısı məktəbin tarix müəllimi Şəhla Rəsulovanın tədbirin möhtəçəm keçirilməsindəki əməyini xüsusi qeyd etmək lazımdır.Gənc müəllimlər Aytac Əlizadə, Güllər Pənahlı,Təranə Cəlilova, məktəb uşaq birliyinin rəhbəri Qəndaf Cəlilova tədbirin mükəmməl şəkildə başa çatması üçün çalışırdılar.

Tədbirdə Nəsimi sözünün ,Nəsimi dünyasının işığına toplaşan hər kəsə bir daha aydın oldu ki, Nəsimi sadəcə şair deyil, o, filosof-şairdir, tamamilə yeni bir fəlsəfi məktəbin yaradıcısıdır. Onun "ənəlhəq" fəlsəfəsi - insanı Allah mərtəbəsinə ucaltması çox maraqlı və düşündürücüdür. Dünya fəlsəfə tarixində, bəşər humanizmində çox orijinal və maraqlı yanaşmalardan biridir. Bu həqiqət ən böyük hökümdarları belə şairin sözü qarçısında mat qöymuşdur. Bu hökmdarlar Şeyx İbrahim də,Teymur Ləng də, başqaları da ola bilərdi.

Nəsimi yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl dayanır. İnsan üçün ən yüksək, ülvi duyğu həmin sevgilinin vüsalına yetişmək, ona qovuşmaqdır. Şair yazır ki, eşqi günah sayanların sözlərinə baxmayaraq, o, bu yoldan çəkinməyəcək. Çünki yalnız bu yol insanı tanrıya, həqiqətə çatdıra bilər.

Şairin qəzəllərini söyləyən şagirdlər əruz vəzninin bütün qaydalarına uyğun şəkildə bədii qiraət nümayiş etdirirdilər.

Tədbirin musiqi tərtibatına Qobustan Şəhər Rəşid Behbudov adına Uşaq İncəsənət Məktəbinin müəllimləri yaxından kömək etdilər. Nəsimi qəzəlləri muğamlarda ifa olundu.

Nəsimi yaradıcılığı orta və ali məktəblərdə tədris olunur. Böyük ideallar şairi bir qədər fərqli biçimdə tədris olunmalıdır. Din çox gözəl bir dəyərdir. O, insanda lazımi mənəvi dəyərlər formalaşdırır. Ancaq biz dini insanlara xurafat, cəhalət şəklində öyrətməməliyik. Dini dəyərlər məhz Nəsimi kimi mütəfəkkir şəxsiyyətlərin təqdim etdiyi səviyyədə, insanın duyacağı anlamda təbliğ olunmalıdır. Məktəbin VIIIb sinif şagirdləri Şairin məhşur"Məndə sığar iki cahan" qəzəlini öz başa düşdükləri kimi tamaşaçılar qarşında təhlil etdilər. Şagirdlərin fikirləri alqışlarla qarşılandı.

Əzabkeş tədqiqatçı Salman Mümtaz yazır ki, Nəsiminin Şaxəndan adlı qardaşı olmuşdur. Qardaşı Nəsimiyə yazıb ki, ilahi sirləri geniş şəkildə açıb-bildirmə, bunları açıb-ağartmaq qorxuludur. Salman Mümtaz onu da göstərir ki, Şamaxıdakı məşhur qəbiristanlıq Şaxəndanın adı ilə bağlıdır. Nəsimi kimi dahiyə sahib çıxmaq üçün şərq oıkələrinin çoxu çox fərziyyələr söyləyir və söyləyəcək. Amma əsl həqiqət odur ki,Nəsimi Azərbaycan ədəbiyyatının paytaxtı Şamaxıda doğulmuşdur. Şairlər yurdu olan Şirvan belə bir dahi yetirə bilərdi. Nəsimiyə qədər təkcə Şirvani nisbəsi ilə yazan şairlərin adını sadalamaq kifayət edər ki. Şirvan torpağının XIV əsrdə Nəsimi kimi bir dühanı yetirməsi heç kəsdə şübhə oyatmasın. Tədbirdə bu fikir xüsusi ilə vurğulandı.

Nəsimi dilin zənginliklərindən qəzəllərində özünəməxsus bir ustalıqla istifadə edib. Bə'zən şair şe'rlərini yalnız xitab və ifadəli təkrarlar üzərində qurur:Bu xitablar ondan sonra gələn şairlərin şeirlərində əsas müraciət ifadəsinə çevrildi.

Böyük şairin həyatı, ölümü ilə bağlı bir çox rəvayətlər var. Bu rəvayətlərin biri daha heyrətamizdir. Belə deyilir ki, Nəsimi öldükdən sonra dərisini çiyninə ataraq Hələbin 12 qapısından çıxır. Bu məqamda qeyd edək ki, şairin edamından sonra Hələbin 12 qapısından eyni vaxtda görünməsi vəlilərə xas kəramətlərdəndir. Tədbirdə bu və digər məlimatlar da öz yerini tapırdı . Ədəbi-bədii gecə şairin "Mənəm,mən" rədifli qəzəli ilə yekunlaşdı . Bundan sonra tədbirin davamı əsl elmi konfransı xatırlatdı. Çıxış edənlər şairin yaradıcılığı haqqında dəyərli fikirlər söylədi.

***Qobustan qəzetinin baş redaktoru R.Şahbazov***

# Qobustan rayonunda heyvanlar arasında xüsusi təhlükəli xəstəliklərə qarşı aparılan profilaktik tədbirlər davam etdirilir







***Qobustan rayonunda "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planına"uyğun xüsusi təhlükəli xəstəliklərə qarşı proflaktiki peyvəndləmə,diaqnostiki müayinə,dezinfeksiya və müalicə tədbirləri davam etdirilir.***

Qeyd olunan tədbirlər Qobustan rayon Baytarlıq idarəsinin 12 sahə baytarlıq məntəqəsi tərəfindən aparılır. İdarənin baytarlıq mütəxəsisləri rayonun 1 şəhər və 26 kəndində saxlanılan 30000 baş iribuynuzlu, 190000 baş xırdabuynuzlu ,700 baş təkdırnaqlı heyvanla və 74400 baş quşa baytarlıq xidməti göstərilir.

Cari ilin müvafiq dövrü ərzində 30013 baş iribuynuzlu,695 baş təkdırnaqlı və 185331 baş xırdabuynuzlu heyvanlar arasında qarayara xəstəliyinə qarşı peyvənd aparılıb.30298 baş iribuynuzlu, və 100428 baş xırdabuynuzlu heyvan Dabaq xəstəliyinə qarşı proflaktiki peyvəndlənib və peyvəndləmə davam etdirilir. Bundan başqa cari ilin müvafiq dövrü ərzində 2432 baş sahibli itdə quduzluq, 850 baş iribuynuzlu və 950 baş xırdabuynuzlu heyvanlarda leptospirioz xəstəliyinə qarşı,129505 baş ("H" ştammı ilə )quş və 179635 baş cücədə ("La-Sota" ştammı ilə )nyukasl xəstəliyinə qarşı peyvəndləmə tədbirləri yerinə yetirilib və peyvəndləmə davam etdirilir. Ümumiyətlə rayonun təsərrüfatlarında heyvanlar arasında aparılan peyvəndləmə tədbirləri soyuq zəncir rejminə əməl olunaraq həyata keçirilir.

Həmçinin həssas heyvanlar arasında Brusellyoz xəstəliyini vaxtında aşkar etmək məqsədilə 2235 baş iribuynuzlu heyvanlardan qan alınaraq seroloji müayinə edilib. Eyni zamanda vərəmə qarşı 3232 baş iribuynuzlu heyvanlarda allergik müayinə aparılıb.

May ayında iribuynuzlu heyvanlarda nodulyar dermatit və xırdabuynuzlu heyvanlarda Dabaq (AO) və Çiçək xəstəliklərinə qarşı proflaktiki tədbirlərini aparmaq məqsədilə nəzərdə tutulmuş vaksinin bölgüsü aparılaraq peyvəndləmə tədbirlərinə başlanılıb.May ayının sonuna kimi həm iribuynuzlu heyvanlar arasında nodulyar dermatit xəstəliyinə , həmdə xırdabuynuzlu heyvanlarda Dabaq (AO) və Çiçək xəstəliklərinə qarşı proflaktiki peyvəndləmə tədbirlərinin başa çatdırılması nəzərdə tutulub.Sonrakı aylarda iri və xırdabuynuzlu heyvanlarda Brusellyoz xəstəliyinə qarşı peyvəndləmə tədbirləri davam etdiriləcək. Eyni zamanda iribuynuzlu heyvanlarda vərəm (allergik müayinə),xırdabuy- nuzlu (qoç)Brusellyoz və epididemit (seroloji müayinə) görə diaqnostik, quşlarda, iri və xırdabuynuzlu heyvanlarda (askaridioz,diktikaulyoz,fassilyoz və monoziyoz və.s )koproloji müayinələrin aparılması nəzərdə tutulur.

Baytarlıq preparatlarının istifadəsində şəffaflığın təmin edilməsi məqsədilə üzərində "satıla bilməz" sözü yazılmış bioperaparatların və dərman maddələrinin heyvanlara təmənasız tətbiqi barədə heyvan sahibləri ilə söhbətlər və izahat işləri aparılır. Eyni zamanda tədbirlər çərçivəsində maariflənmə işi aparılaraq həm iti yolxucu,həm də daxili yoluxmayan xəstəliklər barədə təsərrüfat sahibləri məlumatlandırılır,təsərrüfatlarda baytar-sanitariya qaydalarına ciddi əməl olunması tövsiyə edilir.Mövsümi xəstəliklərə, o cümlədən qan parzitləri,helminfozlar və dəri mozalana qarşı heyvan sahibinin hesabına aparlacaq tədbirlər barədə məsləhətlər, həmçinin risklər (xəstəliklərin yaranma,ötrülmə, yoluxmanın qarşısının alınması)barədə ətraflı məlumatlar verilir.

Hazırda rayonmuz xüsusi təhlükəli xəstəliklərə görə epizootik vəziyyət sabitdir.

# RAYON İDMANI








10 aprel - 14 may 2019-cu il tarixlərində Qobustan İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə idarə, müəssisə və təşkilatlar arasında futbol üzrə Qobustan rayon çempionatı keçirilmişdir. Qələbə uğrunda 8 komanda, "Qobustan İH", "FHN", "Mədəniyyət", "Sahibkar", "Maliyyə", "Polis", "Təhsil" və "Gilan" komandaları mübarizə aparmışlar. Yarımqruplarda I və II yeri tutmuş Qobustan İH", "FHN", "Mədəniyyət" və "Sahibkar" komandaları öz aralarında Kubok sistemi üzrə yarışaraq münasibətləri aydınlaşdırmışlar.

Gərgin və maraqlı keçən çempionatın final görüşündə "Mədəniyyət" və "Sahibkar" komandaları üz-üzə gəlmişlər. Daha üstün futbol nümayiş etdirən "Mədəniyyət" komandası 2:1 hesabı ilə qalib gələrək, 2019-cu ilin çempionu olmuşdur.

"Mədəniyyət" komandasının oyunçusu Daşqın Ağayev çempionatın ən güclü müdafiəçisi, "Sahibkar" komandasının üzvü Behbudalı Ağayev isə ən sərrast və güclü hücumçusu seçilmişlər.

Qaliblərə Gənclər və İdman İdarəsinin diplomları, medalları və Kubok təqdim edilmişdir.

***

26 may 2019-cu il tarixdə Qobustan İdman Kompleksində Qobustan rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə 28 May - Respublika günü münasibətilə 2003-2005 və 2006-2008-ci il təvəllüdlü yeniyetmələr arasında "Cüdo" idman növü üzrə IV Respublika turniri keçirilmişdir. Miqyasına və iştirakçı sayına görə respublika birinciliyindən heç də geri qalmayan bu turnirdə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Siyəzən, Şamaxı, Bərdə, Xaçmaz, Şabran, Yevlax, Oğuz, Ağcabədi, Göyçay, Qəbələ idmançıları ilə yanaşı Qobustan idmançıları da mübarizə aparmışlar. Görüşləri Azərbaycan Cüdo Federasiyasının təyin etdiyi respublika və beynəlxalq dərəcəli hakimlər heyəti idarə etmişlər.

Qobustan UGİM-nin yetiməsi Babarəhim Mirzəyev 46 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək I yeri tutmuşdur. Onun komanda yoldaşları Məhəmməd Nəbiyev, Amin Orucov, Ramin Əsgərov, Mahmud Məmmədov və Şıxızadə Nicat öz çəki dərəcələrində II, Niyət Yaqubov və Turan Ağaverdiyev isə III yeri tutmuşlar. Qeyd etmək lazımdır ki, turnirdə fəqlənmiş bu idmançıların hamısı Qobustan UGİM-nin cüdo üzrə baş məşqçi-müəllimi Qüdrət Ələkbərovun yetirmələridir.

Ümumi komanda hesabında Bakı idmançıları 1-ci, sumqayıtlılar 2-ci, Qobustan idmançıları isə 3-cü olmuşlar.

Qalib gəlmiş idmançılar Gənclər və İdman İdarəs tərəfindən diplom, medal və hədiyyələrlə mükafatlandırılmışlar.

## 530 nəfərə bayram sovqatları paylanıldı

Qobustan rayonunda 31 may 2019-cu il tarixində Ramazan Bayramı ərəfəsində Qobustan rayon İcra hakimiyyəti tərəfindən həmişə olduğu kimi Qarabağ əlilləri və şəhid ailələrinə, rayon ərazisində yaşayan aztəminatlı ailələrə bayram sovqatları paylanılmışdır. 530 nəfərə bayram sovqatları paylanılmışdır.

# 2019-cu ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, ödənilməli vergilər və sığorta haqqları barədə

## YADDAŞ

**2019-cu ilin may ayına görəvergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

✦ Əlavə dəyər vergisi bəyannaməsi,
✦ Aksiz bəyannaməsi,
✦ Yol vergisi bəyannaməsi,
✦ Mədən vergisi bəyannaməsi,
✦ Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və
✦ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

2019-cu ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

✦ Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi 2019-cu ilin iyun ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

✦ Muzdlu işlə əlaqədar 2019-cu ilin may ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi 2019-cu ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - 2020-ci ilin yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2019-cu ilin 2-ci rübü üzrə bəyannaməni 2019-cu ilin iyul ayının 22-dən gec olmayaraq təqdim edirlər).

✦ Xüsusi notariusların 2019-cu ilin may ayı üzrə hesabladığı gəlir vergisi 2019-cu ilin iyun ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2019-cu ilin 2-ci rübü üzrə bəyannamə cari ilin iyul ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

✦ Məcburi dövlət sosial sığortası və işsizlik sığortası üzrə 2019-cu ilin may ayı üzrə hesablanmış sığorta haqqları 2019-cu ilin iyun ayının 18-dən gec olmayaraq tam həcmdə nağdsız formada dövlət büdcəsinə ödənilməlidir.

***Qeyd:***
- 15.06.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən may ayı üzrə hesablanmış sığorta haqqlarının ödənilməsinin son müddəti 18.06.2019-cu il tarixə keçirilmişdir.
- 20.07.2019-cu il tarixi qeyri-iş gününə təsadüf etdiyindən həmin tarixdə təqdim edilməli bəyannamələrin təqdim edilməsinin son müddəti 22.07.2019-cu il tarixə keçirilmişdir.

# 2019-cu ilin birinci rübünə Qobustan rayonunun ümumi məhsul buraxlışı və makroiqtisadi göstəriciləri

2019-cu ilin yanvar-mart ayları ərzində rayonda 37352,2 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bundan 30,2 faizi və ya 11282,7 min manatı istehsal sahələrinin payına düşür. Sənaye məhsullarının ümumi həcmi və göstərilmiş xidmətlər 494,2 min manat və ya ümumi məhsul buraxılışının həcminin 1,3 faizini, kənd təsərrüfatının ümumi həcmi 11210,8 min manat və ya ümumi məhsul buraxılışının 30,0 faizini təşkil etmişdir ki, bunun da 100,0 heyvandarlıq sahəsinin payına düşür. Tikinti sektorunun ümumi həcmi 2570,3 min manat və ya ümumi məhsul buraxılışının 6,9 faizini, nəqliyyat sektoru üzrə 471,2 min manat və ya ümumi məhsul buraxılışının 1,3 faizini, poçt və rabitə xidmətləri üzrə 87,4 min manat və ya ümumi məhsul buraxılışının 0,2 faizini və ticarət sahəsi üzrə isə 22518,3 min manat və ya ümumi məhsul buraxılışının 60,3 faizini təşkil etmişdir.

2018-ci ilin yanvar-mart ayına nisbətən müqayisədə ümumi məhsul buraxılışının həcmi 1710,5 min manat və ya 4,8 faiz artmışdır. Sənaye məhsulunun ümumi həcmi 96,7 faiz, kənd təsərrüfatı məhsulunun həcmi 100,4 faiz, tikinti sektoru üzrə 153,5 faiz, nəqliyyat sektoru üzrə 103,9 faiz, informasiya və rabitə sektoru üzrə 108,0 faiz və ticarət sektoru üzrə 103,5 faiz təşkil etmişdir.

**Qobustan rayonu üzrə Makroiqtisadi göstəricilər**

**min manat**

| | 2019-cu il | 2019-cu ilin 2018-ci ilə nisbəti faizlə |
|---|---|---|
| ümumi məhsul buraxılışı | 37352,2 | 104,8 |
| sənaye məhsullarının ümumi həcmi | 494,2 | 96,7 |
| əsas kapitala yönəlmiş investisiya | 1623,6 | 8,0 |
| kənd təsərrüfatı məhsullarının ümumi həcmi | 11210,8 | 100,4 |
| nəqliyyatda yük daşınması (min ton) | 234 | 102,6 |
| poçt və rabitə xidmətlərinin həcmi | 87,4 | 108,0 |
| pərakəndə əmtəə dövriyyəsi | 16930 | 101,5 |
| əhaliyə göstərilən ödənişli xidmət | 2903 | 103,6 |
| bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manatla | 342,8 | 108,3 |
| qeydə alınmış işsizlərin sayı , nəfər | 1417 | 96,0 |

***Qobustan Rayon Statistika İdarəsi***

# Vergi ombudsmanı vergi ödəyicilərinin hüquqlarını müdafiə edəcək

***Mayın 3-də Vergilər Nazirliyində kütləvi informasiya vasitələri üçün brifinq keçirilib. Brifinqdə Vergilər nazirinin müşaviri Elçin Məmmədov mövcud beynəlxalq təcrübəyə əsaslanmaqla Azərbaycanda Vergi Ombudsmanı İnstitutunun yaradılması və fəaliyyətə başlaması barədə məlumat verib.***

Bildirilib ki, vergi ödəyicilərinin hüquqlarının daha etibarlı qorunmasını təmin etmək məqsədilə Vergilər nazirinin əmri ilə Vergilər Nazirliyində Vergi Ombudsmanı İnstitutu yaradılıb. Bu institut vergi ödəyicilərinin müraciətlərinin məhkəmə müstəvisinə çıxmadan çevik həllinə nail olacaq və vergi orqanları ilə münasibətlərin qarşılıqlı əməkdaşlıq formasında tənzimlənməsinə kömək göstərəcək.

Qeyd olunub ki, Vergilər nazirinin növbəti əmri ilə bu günlərdə vergi ombudsmanının fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini müəyyən edən "Vergi ombudsmanı haqqında Əsasnamə" təsdiq edilib. Həmin əmrlə Vergilər nazirinin müşaviri Elçin Məmmədov vergi ombudsmanı təyin edilib. Bildirilib ki, apelyasiya kommunikasiyalarının çoxluğu sahibkarın müraciətlərinə və şikayətlərinə ədalətli baxılması imkanlarını artırır. Vergi Ombudsmanı İnstitutunun yaradılması ilə vergi ödəyiciləri ilə üfüqi əməkdaşlıq platforması genişləndirilib və vergi ödəyiciləri yeni bir apelyasiya mexanizmi əldə ediblər.

E.Məmmədov qeyd edib ki, Vergilər Nazirliyinin əsas məqsədi vergi ödəyicilərinin baxılmamış, ədalətli araşdırmaya cəlb edilməmiş hər hansı müraciətinin qalmamasıdır. Ombudsman bu işdə onlara yardım edəcək, hüquqi müdafiəsini təmin edəcək, müraciətlərə ədalətli baxılması mövqeyindən çıxış edəcəkdir. Bu, həmçinin, vergi əməkdaşlarının qəbul etdikləri qərarlara görə məsuliyyət daşımasına da böyük təsir göstərəcəkdir.

Brifinqdə vergi ombudsmanının hüquq və vəzifələri, fəaliyyət istiqamətləri haqqında da məlumat verilib. Bildirilib ki, o, Vergilər nazirinin əmri ilə təyin edilən, bilavasitə nazirə tabe olan və ona hesabat verən şəxsdir. Ombudsmanın əsas fəaliyyət istiqaməti vergi ödəyicilərinin hüquqlarının pozulmasının qarşısının alınması və pozulmuş hüquqların bərpasıdır.

## ELANLAR

Əhmədova Güləbətin İbrahim qızına və ailə üzvlərinə verilmiş, Qobustan rayonu Xilmilli kəndində yerləşən JN-0348 nömrəli kod 30712018 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır

Əhmədova Bənövşə Məhərrəm qızına və ailə üzvlərinə verilmiş, Qobustan rayonu Xilmilli kəndində yerləşən JN-0347 nömrəli kod 30712018 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır

Qayıbov Elgün Bakıxan oğluna məxsus AZE 17659032 №-li şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru